

**Hörmətli İbrahim müəllim və "Azərbaycan neft təsərrüfatı" jurnalının əməkdaşları!**

Jurnalın yubileyi münasibətilə səmimi təbriklərimi qəbul edin!

120 illik nəşr olunma tarixi olan jurnalın yerli və xarici elmi-texniki jurnallar arasında seçilən və uzunömürlü olması fərəh doğurur.

"Azərbaycan neft təsərrüfatı" jurnalı Azərbaycan neft sənayesinin inkişaf tarixi, onun problemləri və nailiyyətlərinin hərtərəfli işıqlandırılmasında əvəzsiz rol oynamışdır. Neft-qaz elmi və praktikası, neft məhsullarının keyfiyyətinin yüksəldilməsi, neft kimyası və texnologiyası sahələrindəki yeniliklər daim jurnalda əks etdirilir.

Hazırkı şəraitdə "Azərbaycan neft təsərrüfatı" jurnalının redaksiya heyəti Respublika və qonşu ölkələrin elmi-tədqiqat institutları və sənaye müəssisələri ilə işləməyin yeni üsul və formalarını tapıb. Bu gün jurnal işini yüksək səviyyədə davam etdirir və bu da, şübhəsiz, bütün redaksiya heyətinin müvəffəqiyyətidir.

Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasının İnstitutları ilə "Azərbaycan neft təsərrüfatı" jurnalı arasında müxtəlif sahələrdə sıx əməkdaşlığın olduğunu görmək xoşdur.

"Azərbaycan neft təsərrüfatı" jurnalının redaksiya heyəti və kollektivinə yeni yaradıcılıq axtarışları, uğurlar, sağlamlıq, xoşbəxtlik və ailə rifahı arzulayıram!

**Hörmətlə,**
**Kataliz və Qeyri-Üzvi Kimya İnstitutunun direktoru,**
**akademik Dilqəm Tağıyev**

243
Azərbaycan
Kitabxan